Tarixən Yurdum - Doğma İrəvan!

Heç yadımdan çıxmaz, nənəmin çox illər bundan öncə, yəni mən hələ uşaq ikən 1980-ci illərdə o vaxtlar yeganə telekanal olan Azərbaycan Televiziyasında yayımlanan bir verilişdə dağlardan gözəl görüntüsü və səsi ilə zövq oxşayan axarlı-baxarlı şəlaləyə baxaraq: "nankor ermənilər necə də bizi dədə-baba Yurdumuzdan elədilər, ay bala bu eynən bizim İrəvanın Şəlaləsinə oxşayır, hələ bir bax, diqqətlə qulaq as, sənə qurban bəlkə də elə bizim şəlaləmizdi..." sözünü ağlamağımı artıq gizlədə bilməyib, hıçqıra-hıçqıra deməsi...

Nazlı Yazar

Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm" mükafatı laureatı, vətənpərvər şairə

Ta o illərdən, uşaqlıq yaddaşımda öz acı xatirəsi ilə qaysaqlanan bir yara, bir iztirab ilişib qalıb ürəyimin dərinliyində, böynubükük bənövşətək beynimin bir küncündə... Düzü ki, ailəmizdə məndən başqaları da olsa, amma bir neçə il onlar mənim bu acımasız dünyaya gəldiyim evdən uzaq bir yerdə, mən isə qoca nənəmlə bir yerdə qalmalı olmuşduq. Onu qeyd edim ki, atamın istəyi ilə biz nənəmizə-Ana deyə müraciət edirdik (səbəbi-onun atamdan başqa övladının olmaması idi) və bu da ona xoş gedirdi. Nənəmlə bağlı çox xatirələrim var, saymaqla bitməz, ancaq oziz oxucu bu gün, istədim ki, nənəmin doğulub boya başa çatdığı bir yerdən, bir ünvandan- İrəvandan, İrəvan Xanlığının ərazisində yerləşən elimizdən, obamızdan, tarixən Azərbaycanın mühüm bir hissəsi olan Qədim Yurddan danışım.

Az-çox məni tanıyanlar əsasən bir vətənpərvər şair kimi, həm də bir jurnalist kimi tanıyır. Müqəddəs və Möhtəşəm Zəfərimizdən artıq beş ildir ki, keçir. Möhtəşəmliyini hamı, bütün dünya bilir, amma birdən kimsə desə ki, yaxşı bos nədən Müqəddəs Zəfər? Zəfərimiz Müqəddəsdir ondan ötrü ki, 30 ilə yaxın bir müddətdə yağı düşmən tapdağı altında inildəyən Vətən torpaqlarımızı azad edən, bu gözəl məmləkətimiz Anamız-Can Azərbaycanımızın ərazi bütövlüyü uğrunda canını fəda edən, Şəhidliyə yüksələn İgid Şəhidlərimizin Müqəddəs Al Qanı həmin torpaqlarda bu günkü zamanda bitəcək gülləri, ağacları, göz oxşayan yaşıl zəmiləri al lələli qanlarıyla suvarıblar. Fərq etməz, tarixin ta o başından, bu başınadək bu Vətənin bir Vətən, bir dövlət olaraq var olması və gələcək nəsillərə ötürülməsi üçün canını fəda edən, Şəhidliyə yüksələn bütün Şəhidlərimizin nurlu ruhları qarşısında baş əyərək artıq beş ildir ki, mütəmadi olaraq İgid Şəhidlərimizə həsr olunan tədbirlərdə bir vətənpərvər şair Nazlı Yazar olaraq onlara ithaf etdiyim şeirlərimlə iştirak edirəm və onlarla qürurlanaraq fəxr edirəm. Ancaq hər zaman da dua edirəm ki, bizim gələcək nəsillərimiz bir daha Şəhid yox, xoş günə Şahid olsunlar!

Qarabağı azad edən İgid Şəhidlərimizlə, Qazilərimizlə və Ali Baş Komandanlı Müzəffər Ordumuzla həm də ona görə qürur duyuram və inanıram ki, tezliklə mənim və eləcə də mənim kimi neçələrinizin nənələri göz yaşıyla, ürək ağrısıyla danışdıqları o, doğma, Qədim İrəvanımız, güllüçiçəkli Rəvanımız da çox keçməz ki, elə bu Vətənin İgid Oğullarının sayəsində və İnşəAllah ki, qansız, qadasız öz doğma sahiblərinə, yəni biz azərbaycanlılara qayıdacaq!

İrəvanımızın həqiqətən də bizlərə mənsub olmasını, onun qədim Azərbaycanın Yurdu, bir hissəsi olmasını istədim ki, tarixi faktlara əsaslanaraq da sizinlə bölüşüm. Onu qeyd edim ki, bu tarixi faktlara əsaslanaraq yazdığım "İrəvan Tarixən Azərbaycandır!" adlı poemamda da bir vaxtlar əcnəbi soyyahının Qədim İrəvana gələrək onun haqddında yazmalarını və həqiqətən də İrəvanın o zamankı ifadələrlə yəni, o zaman ruslar bizlərə tatar deyə müraciət edərdilər hansı ki, bu biz idik- azərbaycanlılar; hal-hazırkı tarixə qədər analoqu olmayan 44 Günə Zəfər Çalan bir Qalib Xalq, Qalib Millət! -yəni əcnəbi soyyahın tarixi yazılarını Uca Allahın izni ilə nəzmin dili ilə də vurğulamışam.

Tarixi faktlardan bir nümunə:

XIX əsrin I qərinəsində Rusiya tərəfindən işğal olunmasına baxmayaraq sonrakı dövrlərdə də İrəvan şəhəri öz gözəlliyini və Azərbaycan türklərinə məxsusluğunu saxlayırdı. B.Jelixovskaya bu haqda yazır: «İrəvan görünüşünə görə bütünlüklə tatar (Azərbaycan - red.) şəhəridir, uzaqdan çox gözəldir. Şəhərin yerləşdiyi düzənlik nəhəng çiçək səbətinə bənzəyir. Ağ evlər, güllələr, qalanın xarabalıqları, rəngbərəng kaşılarla üzlənmiş məscid və təmtəraqlı minarələr: bunların hamısı bağların içərisində itir, piramidaşəkilli sərvlərin xiyabanı ilə dövrələnir, hər şey üzüm tənəkləri, sarmaşıq xalçaları ilə əhatə olunmuş, hamısı qızılgül və nar kolları ilə bəzədilmişdi. Zəngi çayı yüksək dağdan şəlalə kimi düzənliyə tökülür və qayalarda dərin yataq açaraq şəhərə doğru yönəlir və hər cür yaşıllığın keçilməz cəngəlliyində itir».

İrəvan şəhərində daimi yaşayan əhalinin tamamilə Azərbaycan türklərindən ibarət olmasını ilk mənbələr də təsdiq edir. Məsələn XVII əsr fransız səyyahı Şarden İrəvanda olarkən (1673) Səfiqulu xan Çuxursəd bəylərbəyi və İrəvan hakimi idi. Şarden onun incəsənəti və elmi sevdiyini, hamının ona hörmət etdiyini göstərir. Səyyahın məlumatına görə «...İrəvan qalası təxminən səkkiz yüz evdən ibarətdir. Orada ancaq təmizqanlı qızılbaşlar yaşayırlar».

Hələ bu İrəvan şəhərnin yəni, mərkəzin əhalisin türklərdən, biz azərbaycanlılardan ibarət olmasını göstəricisidir, ümumilikdə bütün İrəvan Xanlığının ərazisində keçmişini, adət-ənənəsini sevən və qoruyan azərbaycan türkləri yaşayıblar. Həə, bir də onu qeyd edim ki, nənəm deyirdi ki, onların şəxsi sənədlərində də əvvəllər türk olduğu qeyd olunub, daha sonralar yəni, SSRİ yarandıqdan bir neçə il sonra türk sözü yerinə azərbaycanlı sözü yazılıb.

Nə isə ki, görüb bildiyin kimi bizim millətimizi istəyən az-çox dost millətlər, dövlətlər olubsa da, istəməyən də az olmayıb. Amma nə yaxşı ki, biz bir millət olaraq bu günə qədər öz dövlətimizi qoruyub saxlayaq bilmişik, 44 Günlük Zəfər traxidə olduğu kimi Bir Yumruq ətrafında sıx birləşək ,qalibiyyətimizi qazanmış və Uca Rəbbimizin köməyi ilə də gələcək nəsillərə ötürəcəyik. Şükürlər olsun Uca Yaradana...

Elə bu məqamda da, bu andaca yazdığım "İrəvan Tarixən Azərbaycandır! poemamım Sizinlə bölüşərək, millətimizə, xalqımıza, Turanımıza, bütünlükdə Dünya Evimizə xoş günlər, xoş illər, firavan həyat, toy-büsat arzu edirəm!



"İrəvan Tarixən Azərbaycandır!

POEMASI

Tarixdən silinməz oğul böyüdən,
Sisanım, Nər Öndər Heydər yetirən!
Sevinəcək Yurdum, bütün el, obam,
Şirazlım, gələcək sevinc gətirən!

Tarixi Yurdumdu, doğma İrəvan,
Hər dağı, hər daşı gül, çiçək, rəvan.
Axarlı çayları, gül yamacları,
Bir gövhər, səltənət, bir göyçək, rəvan!

Babam Xətai də, Əmir Teymur da,
Yurduma göyçəkdir, rəvandır dedi.
İrəvanqulu Xan qala tikdirdi,
Qala üç qapıdan öz sözün dedi.

Təbriz, Şirvan, Körpü qapısındadı,
Qala İrəvana giriş, ziyarət.
Öton tariximdən o da, yazmışdır,
Əcnəbi səyyahı edən səyahət.

Culfa, Sulu, Susuz karvansarası,
Söhbətlər olurdu sarvanarası.
Onlar edərdilər dünyadan söhbət,
Tacir əfəndilər, əhli ticarət.

Orda İgidlərim atlar oynadıb,
İrəvan Xanlığı bir tarix yazıb.
Göyçədən Qafana, Zəngibasara,
Tarixdən silinməz bir yollar salıb.

İrəvan Xanlığı Bayrağındadı,
Əldə sivri qılınc, şirim, aslanım!
Xanlığım silinməz qalan qaladı,
Nər Mirmehdi Xandı şirim, aslanım!

Babam göz açıbdı, Şidli kəndində,
Abasqulu Bəyin Şadlı kəndində.
İrəvanım, Vedim elə gözəl ki,
Vəsf edirəm onu şeir dilində!

Göyçə bir göyçəkdir, hər kəsə bəlli,
Aşıq Ələsgərim, Nur Aşıq Alı.
Gözəli vəsf edib yaşdan dedilər,
"Yüzə bir şey qalmaz, aşsan son əlli".

Orda bir elim var, adı Sürməli,
Bir nazlı gəlin tək gözü sürməli.
Gözəldən varıb da, Qırxbulağıma,
Ləl, gövhər suyundan doyum içməli.

Məzrə, Qabaralı zəhmətkeş əli,
Yurd-yuva qurulub, yaşıl zəmili.
Bura əl çəkilib, Peyğəmbər əli,
Dərəçiçək dərə, güllü, çiçəkli.

Zər Karbi, Xınzirək, ləl Gərni, Şərur,
Xanlığımın qəlbi bil orda vurur.
Yurdum çox gözəldi, deməklə olmur,
Bir səyyah ürəyi köksümdə vurur!

Ağsaqqal-Seyidli, o nər mahalı,
Seyidimin sözü dürdü, bahalı.
Soodli, Dərəkənd, bərəkətli kənd,
Makravonq, Solakdı şeirimdə bənd.

Yuxarı Aşağı Qarabağlıdı,
Qəlb Vətən həsrətli, niskil, dağlıdı,
Nazlı Yazar elə, elə bağlıdı,
Gözəl İrəvana həsəd, bağlıdı!

Yurdum köklü, bütöv obam, elimdi,
İrəvan baltəkin şirin dilimdi!
Çeşməsi, bulağı, təndir çörəyi,
Lavaşı, havası dərdə qənimdi!

Amasiya, Gümrü, o Karvansara,
Deyir: "Hanı o el, axtar, bir ara.
Şəmsəddin, o, Axta, nur Allahverdi,
Bu gözəllikləri Nur Allah Verdi!

Arpaçay nurlu ay, nurlu göz, qaşdı,
Xumar gözdən gələn, həsrətli yaşdı.
Ellər bizi səslər, gözlər Dilican,
Ağbaba həsrətli susmur bu dil, can!

Tezliklə sökülsün o tilsim, hasar,
Gəlirik bizi gözlə, Zər Kərbibasar.
Yetər ta bu tilsim, Mehri, Barana,
Qoy Günəş bərq vursun boranlı ana!

Gorusum, Qəmərli, Çəmbərək, Kəvər,
Vətənə dönəcək, nər vətənsevər!
Dönəcək, güləcək Yurdum o Bayburd,
Güləcək qədimim, qədim Oba, Yurd!

Darıxma gözəlim, gözəl Yengicə,
Üzün güləcəkdir, bizi görünçə!
O dağda, o daşda güllər açacaq,
Təbiət güləcək, bizi görünçə!

Qəm yemə saf, duru, gözəl Hamamlı,
Qayıdacaq o an, xoşbəxt xoş anlı.
Sevinəcək Yurdum, o Uluxanlı,
Xanlar əmanəti, Xan Uluxanlı.

Dərələyəz, Pəmbək, Zəngəzuruma,
Burdan səs salıram ta Uruma!
Yetişəcək dada nər Vətənoğlu,
Yağısız olacaq, Zər Cələloğlu.

Şəhər İrəvanda səkkiz məscidim,
Var idi minarəm, azanlı dinim.
Deyim Xanlığımdan, salon güzgüdən,
Salonlu güzgünün qəmli məhvindən.

Üç yüz yetmiş yeddi (377) yağı düşmənlər,
Rus çarı tərəfdən Yurda gələnlər...
Vaxt keçdi güzgünü vurub yıxdılar,
Güzgü bir tarixdi, deyib qorxdular.

Gül-Gülüstan idi, mənim Vətənim,
Türkmonçay kəsildi Yurduma qənim.
Hər kəsin evində samovar vardı,
Samovar da sonra kürək dağladı...

Xəyalən gəzdim mən, Yurdu hər qarış,
Tarix varaqladım, gözüm ağladı.
Gorək bitməyəydi haydan o qamış,
Köksümdə döyünən ürək ağladı.

Gülüstan, Türkmənçay müqaviləsi,
Tarix də səhv yazdı müqaviləsin.
Bu həlim ürəklə yer verdiyimiz,
O, murdar hayların gur qənim səsi...

Cabbarlı da yazdı,Allahverdidən,
İmanverdi ilə Allahverdidən...
1905-də o baş qaldırıb,
"Hayes, Türkes?" deyən bizə qənimdən...

Haylara ər dedik, mən dedik nədən?!
Ərməni deyib də yer verdik nədən?!
Sonra "yersiz gəldi, yerli qaç" deyib,
Didərgin etdilər, bizi Vətəndən...

Babamı məcburən köçkün etdilər,
"Bura haylar gəldi, çıxın" dedilər.
Nənəmi ağlargöz, didərgin edib,
Lal Vətən həsrətli, Leyli etdilər.

Babam bilmədi ki, kimə söz desin,
Dərdi kimlə bölüb, çarə istəsin.
Səkkiz də nə deyir?-bizlərə axı,
Qırx səkkiz, səksən səkkiz dərddi axı...

İrəvanda qaldı, xal da, o bal da,
Şipşirin arzular, duyğu, xəyal da.
Üçrəngli bayrağım dalğalanacaq,
Bil gerçək olacaq, duyğu, xəyal da!

Qərbi Azərbaycan irsim, qanımdır,
Bütöv Azərbaycan köksüm, canımdır!
Vətəni büs-bütöv görmək istəyən,
Bu şair ürəyi, yanan canımdır.

Hüseynəli Xan Nur ucaltmışdı,
Göy Məscid qalasın, Göy Məscid özün.
Çox keçməz tezliklə Sərdarabadda,
Sərdarım deyəcək, Nər Nida Sözün:

"Tək Qarabağ deyil, İrəvan bizim,
Qədim Yurdumuzdur, Azərbaycandı!
Oru Dədə Qorqud qopuzlu izim,
Ulu Nənələrim toxuyub cecim..
İrəvan qəlbdə can Azərbaycandır!
İrəvan Tarixən Azərbaycandır!